**UOT:60.**

# KÜTLƏVİ QIRĞIN SİLAHLARININ TƏTBİQİ ZAMANI YARANAN İNFEKSİYALAR

***Hüseynov Fikrət Bəhlul oğlu, Məmmədova Mahnur Qafar qızı,***
***Ələkbərova Zülfiyyə Bəxtiyar qızı***
***Gəncə Dövlət Universiteti***
*gceferova@rambler.ru*

**Xülasə:** *Elmi məqalədə ədəbiyyat materiallarına əsaslanaraq müəyyən növ kütləvi qırğın silahlarının istifadəsinin nəticələrinin öyrənilməsi sahəsində müasir tədqiqatların əsas tətbiq olunan nəticələri təqdim olunur. Bu elmi işdə vacib bir məqam müxtəlif infeksiyaların meydana gəlməsinin formalarını və növlərini, ətraf mühitə mənfi təsirlərini, sınaqdan sonra ekoloji vəziyyəti və praktik kütləvi qırğın silahlarının tədqiq edilməsidir.*

**Açar sözlər:** silah, infeksiya, qırğın silahı, döyüş, hərbi təchizat.

**Ключевые слова:** оружие, инфекция, оружие уничтожения, война, военные поставки.

**Key words:** weapon, infection, weapons of destruction, war, military supplies.

Müasir dövrdə nüvə, kimyəvi və bakterioloji silahların inkişafı və tətbiqi qaçılmazdır. Bakterioloji silah insanları, heyvanları və bitkiləri yoluxdurmaq üçün tətbiq olunan patogen mikroorqanizmlər, onların toksinləri, viruslar, göbələklər, infeksiyalar təşkil edir. Bu silah növünə taun, vəba, tulyaremiya, qara yara, tetanus, malyariya kimi xəstəlik törədiciləri aiddir.

İnfeksiya-xarici mühitin təsirindən patogen mikroorqanizmin insan, yaxud heyvan orqanizminə daxil olması nəticəsində orqanizmdə gedən qarşılıqlı prosesdir. İnfeksiyanı törədən amil orqanizmə daxil olduqda müəyyən orqan və toxumalarda məhdudlaşır. Nəticədə infeksion proses əmələ gəlir. İnfeksion proses kəskin və xroniki xəstəliklər formasında aşkar ola bilər.

Hər bir infeksion xəstəliyi müəyyən növ mikrob törədir. İnfeksion xəstəliklər zamanı xastəlik törədicisinin xəstələrdən sağlamlara kontakt və ya aralıq obyektləri vasitəsilə verilməsi halı kontagiozluq adlanır.

İnfeksion xəstəliklərin əvvəlcə inkubasiya, sonra prodremal, daha sonra kliniki dövr və nəticə halında getməsi onların mərhələlər üzrə getməsini göstərir.

İnfeksiya törədicilərinin orqanizmə daxil olması anından ilk klinik əlamətlərin görünməsinədək latent (gizli), infeksiyalarda isə immunlbioloji reaksiyaların ilk müsbət nəticəsinədək olan dövrə inkubasiya dövrü deyilir. Bu dövr bütün infeksion xəstəliklər üçün xarakterikdir, müddəti isə müxtəlif olmaqla bir neçə saatdan bir neçə günə, bəzi infeksiyalar zamanı isə bir neçə aya qədər davam edir. Eyni bir xəstəlikdə də inkubasiya dövrü orqanizmin ümumi davamlılığı və xəstəlik törədicisinin virulentlik dərəcəsindən asılı olaraq müxtəlifdir.

İnkubasiya dövrü sonra prodromal dövrlə əvəz olunur ki, bu da bir neçə saatdan bir iki günə qədər davam edir. Bu dövrdə qeyri-spesifik əlamətlər-yəni zəiflik, ümumi öngünlük, iştahanın pozulması və bədən temperaturunun az dərəcədə yüksəlməsi müşahidə olunur. İnfeksion xəstəliklər zamanı bakterial və toxuma mənşəli toksiki məhsullar ürək əzələsi və qan damarlarına, həmçinin veqetativ sinir sisteminə təsir edərək ürək-damar sisteminin zədələnməsinə səbəb olur. Nəticədə həm funksional, həm də üzvü dəyişikliklər baş verir. Bakterial toksinlərin təsirindən mədə-bağırsaq şövbəsində iltihablı-destruktiv dəyişikliklər, fermentativ, sekretor və ekskretor funksiyaları pozulması əmələ gəlir.

İnfeksion prosesin yüngül gedişi zamanı orqanizmin bütün fizioloji sistemlərinin pozulmuş funksiyaları bərpa olunur, kliniki əlamətlər zəifləyir və rekonvalessensiya dövrü yaranır. Bu dövrün müddəti xəstəliyin xüsusiyyətindən, heyvanların immunoloji reaktivliyindən, onların saxlanma və yemləmə şəraitindən, habelə müalicənin effektivliyindən asılıdır.

İnfeksion xəstəliklərin müalicəsi kompleks, etioloji və patogenetik baxımdan əsaslı, orqanizmin vəziyyəti, xəstəliyin ağırlığı və fazaları nəzərə alınmaqla fərdi olmalıdır. Kompleks terapiya zamanı infeksion xəstəliklərin inkişafında iştirak edən bütün amillər nəzərə alınır. Törədici mikrobun aktivliyini azaltmaq və toksinlərini neytrallaşdırmaq, orqanizmin infeksiya ilə mübarizədə qoruyucu qüvvələrini artırmaq və pozulmuş daxili mühitin bərpasından ötrü, aparıcı patogenetik amilə təsir göstərmək üçün müxtəlif dərmanlardan istifadə olunur. Törədici mikroba təsir göstərmək üçün antibakterial preparatlar (kimyaterapiya, antibiotikoterapiya), bakteriofaqlar (faqoterapiya), immun serumlar, spesifik qammaqlobulinlər tətbiq olunur. Orqanizmə təsir göstərərkən immunogenezi tənzimləyən spesifik təsirli preparatlardan, o cümlədən, vaksinlərdən və qeyri-spesifik təsirli vasitələrdən, yəni vitaminlərdən, qan preparatlarından (hemoterapiya), habelə pirimidin törəmələrindən (metilurasil, penteksil), qlükokortikosteroid hormonlardan və s. istifadə edilir. Fərdi terapiyanın aparılması xəstəliyin dövrünü, formasını, gedişini, ağırlığını nəzərə almağı, müfəssəl patogenetik diaqnozun qoyulmasını və xəstənin yaşına, orqanizminin xüsusiyyətinə diqqət yetirilməsini tələb edir. Bununla da müasir tibb qədim "müalicə xəstəliyin müalicəsindən ibarət deyil. Müalicə xəstənin özünün müalicəsindən ibarətdir" tezisini təsdiq edir. İnfeksion xəstələrin müalicəsində rejim, qida, ətraf mühitin gigiyenası mühüm amillərdir. İnfeksion patologiyada antibiotikoterapiya daha böyük praktik əhəmiyyətə malikdir.

Malyariya ölümcül qlobal xəstəliklərdən biridir. Malyariya parazitləri insanın qanına düşdükdə dövr edərək qaraciyərə düşürlər. Onun hüceyrələrinə nüfuz edərək, böyüyərək çoxalırlar. Sonradan parazitlər qaraciyəri tərk edərək eritrositlərə daxil olurlar. Bu proseslər bir həftədən bir neçə aya kimi çəkə bilər. Parazitlər qaraciyərdə olduqda insan heç bir narahatlıq hiss etmir. Eritrositlərə daxil olan parazitlər öz inkişafını davam etdirir və çoxalırlar. Eritrositlərin qılafı partladıqdan sonra onlar digər eritrositlərə daxil olmağa imkan əldə edirlər. Bu cür halda parazitlər toksinlər (zəhərlər) ifraz edirlər. Qan dövranına düşəndə parazitlər digər orqanlara, o cümlədən beyinə də xətər yetirə bilər. Bunun səbəbi ağır infeksiyaya məruz qalmış eritrosit laxtalarının qanın kapilyarlarda hərəkətinə maneçilik törətməsidir (belə olduqda bədən toxumaları zəifləyir).

Xəstəliyin klinik mənzərəsi qızdırma tutmaları ilə xarakterizə olunur. Tutmalar titrəmə, qızdırma və tər ifrazı ilə müşayət olunur. Müalicəsi zamanı malariyaya qarşı (xinin, xinqamin) preparatları parenteral yeridilir.

**_Ədəbiyyat_**

1. "İnsanın anatomiyası" V.Şadlinski.
2. "İnsanın mikrobiologiyası" Şuvalova.
3. "İnfeksion xəstəliklər" Şuvalova.
4. "Həyat fəaliyyətinin təhlükəsizliyi" H.Ocaqov.

## ИНФЕКЦИИ, ВОЗНИКАЮЩИЕ ПРИ ИСПОЛЬЗОВАНИИ ОРУЖИЯ МАССОВОГО УНИЧТОЖЕНИЯ

**_Гусейнов Фикрет Бахлул оглу, Мамедова Махнур Кафар кызы, Алекперова Зульфия Бахтияр кызы_**

**_Резюме_**

В научной статье изложены основные прикладные результаты современных исследований в сфере изучения последствий при использовании отдельных видов главных оружий массового уничтожения на основе литературных материалов. Важным моментом в данной научной работе является уточнение форм и видов возникновения разных инфекций, их негативного воздействия на окружающую среду, экологическую обстановку после проведения испытательных и практических оружий массового уничтожения.

## INFECTIONS ARISING FROM THE USE OF WEAPONS OF MASS DESTRUCTION

***Huseinov Fikrat Bahlul, Mammadova Mahnur Gafar,***
***Alakbarova Zulfiyya Bakhtiyar***

***Summary***

Scientific article deals with the research of the main applied results of modern research in the field of studying the consequences of using certain types of main weapons of mass destruction based on literary materials. An important point in this scientific work is to clarify the forms and types of occurrence of various infections, their negative impact on the environment, and the environmental situation after testing and practical weapons of mass destruction.

***Rəyçi: dos. Vaqif Qocayev***
***Fiziki tərbiyə, çağrışa qədərki hazırlıq və mülki müdafiə kafedrasının 12 fevral 2021-ci il tarixli 06 saylı protokolu***
***Daxil olma tarixi 12 fevral 2021- ci il***

**UOT: 811.111**

## DEVELOPMENT OF TEACHING-LEARNING MATERIALS

***Mammadzadeh Natavan Yusif***
***Ganja State University***
***calilovat@mail.ru***

**Annotation**: *In educational institutions, the development of teaching-learning materials is regarded as one of the major aspects that would promote student learning and help in the achievement of academic goals and objectives. The educators need to focus upon bringing about developments in the teaching-learning materials. They need to conduct research and promote modern and innovative methods to enrich the system of education. The advancements in teaching-learning materials are brought about on the basis of number of aspects. These are, grade levels of students, academic goals and objectives and subjects and concepts. When these are introduced, the educators need to ensure that they prove to be beneficial to the students in achieving academic goals. Research has indicated that the introduction of modern and innovative methods and teaching-learning materials have led to developments of the overall system of education. The main aspects that have been taken into account in this research paper are, significance of teaching-learning materials, objectives of teaching-learning materials, types of teaching-learning materials, designing and development of teaching-learning materials, and recommendations.*

**Key words:** teaching materials, boards, textbooks, computer, audio materials
**Açar sözlər:** tədris materialları, lövhələr, dərsliklər, kompüter, səs materialları
**Ключевые слова:** учебные материалы, доски, учебники, компьютер, аудиоматериалы

Teaching-Learning Materials (TLMs) are the tools that are used by teachers and instructors within schools to facilitate learning and understanding of concepts among students. These are the educational materials that are used within the classroom setting to support the learning objectives, as set-out within the lesson plans (Teaching Learning Materials, n.d.). Within the education system, there has been use of TLMs since ancient times. With the classroom setting, the major role that has been rendered by the TLMs is to make learning real, practical and pleasurable for the students. The teachers also make use of TLMs to illustrate or